Xalq qəzeti.- 2024.- 11 may, № 97.

# Şuşanın növbəti “Xarıbülbül” təntənəsi

**Bu gün “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalı yenidən iştirakçıları mədəniyyət paytaxtımız Şuşaya – Cıdır düzünə toplayıb. Özü də budəfəki festivalın səsi-sədası əvvəlkilərdən fərqli olaraq həm Şuşadan, həm də Laçından gəlir.**

Zəngin proqramlı “Xarıbülbül” Azərbaycan mədəniyyəti tarixinə qızıl hərflərlə yazılan səhifədir. Bu festivalın təməli hələ 1989-cu ildə, məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi zamanı qoyulub, Qarabağın işğalına qədər hər il keçirilib. 44 günlük Zəfər yürüşündən sonra, 2021-ci ilin mayında Heydər Əliyev Fondunun təşkilatçılığı ilə “Xarıbülbül” yenidən bərpa olunub. Açılışlarda Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak ediblər. Dövlət başçısı ürək sözlərini söyləyib.




Bu il 35 yaşını qeyd edən, sayca 7-ci olan festival da Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə baş tutur. Xatırladaq ki, Şuşa şəhəri 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan olunub. Azərbaycan Prezidenti ötən ilin noyabrında bununla bağlı tədbirlər haqqında sərəncam imzalayıb. Öz növbəsində “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalı da islam dünyası ölkələri arasında mədəni əlaqələrin inkişafına töhfələr verəcək. Builki festival iştirakçıları arasında həm də İSESCO-ya üzv ölkələrdən ifaçılar və yaradıcı kollektivlər dəvət olunublar.

Festival proqramı iştirak edəcək ifaçıların zənginliyi ilə yanaşı, həm də repertuar və fərqli təqdimatlarla yadda qalacaq. Bu gün Cıdır düzündə “Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024” ilinin və “Xarıbülbül” VII Beynəlxalq Musiqi Festivalının açılış konserti keçiriləcək.

Mayın 13-də isə Laçında, Həkəri çayının sahilindəki bulvarda davam edəcək. Orada qonaqlar üçün fərqli ölkələrdən gələn ifaçıların təqdimatında əlvan proqramlı konsert veriləcək.

***Ə.ƏLİYEV***
***XQ***